Tahir ORUCOV
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu
E-mail: tahiroruclu@gmail.com
ORCID ID: 0009-0008-6435-4103
https://doi.org/10.59849/2309-7949.2026.2.116

"KOROĞLU" DASTANINA SOVET İDEOLOGİYASININ TƏSİRİ

Açar sözlər: "Koroğlu" dastanı, Paris nüsxəsi, Tiflis nüsxəsi, sovet dövrü, marksist ideologiyası, Hümbət Əlizadə, M.Təhmasib, Üzeyir Hacıbəyli.

АННОТАЦИЯ
ВЛИЯНИЕ СОВЕТСКОЙ ИДЕОЛОГИИ НА ЭПОС «КОРОГЛУ»

Эпос «Короглу» — самое великолепное произведение азербайджанской устной народной литературы после эпоса «Китаби-Деде Горгуд». В эпосе «Короглу», отражающем события социально-политической жизни Азербайджана в XVI-XVII веках, особенно Джалалиское восстание, историчность и художественность взаимосвязаны. Хотя эпос «Короглу», являющийся историческим героическим эпосом, был создан в XVI-XVII веках, он пережил богатое развитие в XVII-XVIII веках. Эпос «Короглу» — один из наиболее исследованных и изучаемых памятников фольклора. Сотни работ посвящены изучению этого эпоса. Эпос «Короглу» получил широкое распространение с момента своего создания, и большой научный интерес к нему возник с начала XVIII века. С тех пор были записаны фрагменты эпоса, стихи, сказки и легенды о нём.

Наиболее совершенное издание «Короглу», занимающее достойное место в сравнении с эпосами народов мира, считается результатом многолетней работы М. Тахмасиба. Среди эпосов «Короглу» наиболее запомнилась и любима книга, изданная в 1941 году покойным фольклористом Гумбатом Ализаде, который проделал наибольшую работу в области сбора и публикации нашего фольклора, особенно ашугского творчества, и наших эпосов.

В середине XIX века интерес к «Короглу» внезапно резко возрос, привлекая внимание российских и европейских учёных и интеллектуалов. Важную роль в этом сыграла книга А. Ходзко «Короглу», изданная на английском языке в Лондоне в 1842 году. После этой публикации «Короглу» был переведён на французский и немецкий языки и стал более широко известен и распространился в Европе.

Марксистская идеология советской эпохи была применена к такому древнему и величественному героическому эпосу, как «Короглу», и были сделаны ужасные, невообразимые выводы. Герой с тысячелетней историей, Короглу, был изображен как лидер простого крестьянского восстания. С другой стороны, Короглу изучался как факт литературы XVII века наряду с литературными деятелями того периода, а сам эпос «Короглу» рассматривался как литературное произведение той же эпохи. В статье разъясняются и изучаются эти вопросы.

Ключевые слова: эпос «Короглу», парижская копия, тбилисская копия, советский период, марксистская идеология, Гумбат Ализаде, М. Тахмасиб, Узейир Хаджибейли.

ABSTRACT
THE INFLUENCE OF SOVIET IDEOLOGY ON THE KOROGLU EPIC

The Koroglu Epic is the most magnificent work of Azerbaijani oral folk literature after the Kitabi-Dede Gorgud epic. Reflecting the socio-political events of Azerbaijan in the 16th and 17th centuries, particularly the Jalalis Uprising, the Koroglu Epic combines historicity and artistic expression. Although the Koroglu Epic, a historical heroic epic, was composed in the 16th and

17th centuries, it experienced a rich development in the 17th and 18th centuries. The Koroglu Epic is one of the most researched and studied folklore monuments. Hundreds of works have been devoted to the study of this epic. The Koroglu Epic has been widely disseminated since its creation, and significant scholarly interest in it arose in the early 18th century. Since then, fragments of the epic, poems, tales, and legends about it have been recorded. The most complete edition of "Koroğlu," which ranks highly among the epics of the world, is considered the result of M. Tahmasib's many years of work. Among the "Koroğlu" epics, the most memorable and beloved is the one published in 1941 by the late folklorist Humbat Alizade, who did the most work in collecting and publishing our folklore, especially ashug works, and our epics.

In the mid-19th century, interest in "Koroğlu" suddenly surged, attracting the attention of Russian and European scholars and intellectuals. A. Khodzko's "Koroğlu," published in English in London in 1842, played a key role in this. Following this publication, "Koroğlu" was translated into French and German, becoming more widely known and distributed throughout Europe.

Soviet-era Marxist ideology was applied to such an ancient and majestic heroic epic as Koroghlu, and horrific, unimaginable conclusions were drawn. A hero with a thousand-year history, Koroghlu, was depicted as the leader of a simple peasant rebellion. On the other hand, Koroghlu was studied as a fact of 17th-century literature, alongside literary figures of that period, while the Koroghlu epic itself was viewed as a literary work of the same era. This article explains and explores these issues.

Keywords: Koroghlu epic, Parisian copy, Tbilisi copy, Soviet period, Marxist ideology, Humbat Alizade, M. Tahmasib, Uzeyir Hadjibeyli.

“Koroğlu” dastanı “Kitabi-Dədə Qorqud” dastanından sonra Azərbaycan şifahi xalq ədəbiyyatının ən möhtəşəm əsəridir. “Dədə Qorqud” Azərbaycan xalqının formalaşdığı, “Koroğlu” isə Azərbaycan millətinin formalaşdığı tarixi dövrlərdə təşəkkül tapmışdır. “Koroğlu” dastanı ilə “Kitabi-Dədə Qorqud” eposu arasında qırılmaz semantik-struktur əlaqə vardır. XVI-XVII əsrlərdə Azərbaycanın ictimai-siyasi həyatında baş vermiş hadisələrlə, xüsusilə Cəlalilər üsyanı ilə səsləşən “Koroğlu” dastanında tarixiliklə bədiilik qarşılıqlı əlaqədədir. Tarixi qəhrəmanlıq dastanı olan “Koroğlu” dastanı XVI-XVII əsrlərdə yaransa da, o, XVII-XVIII əsrlərdə zəngin inkişaf yolu keçmişdir.

“Koroğlu” dastanı ən çox araşdırılan və öyrənilən folklor abidələrimizdən biridir. Bu eposun tədqiqi ilə bağlı yüzlərlə əsərlər yazılmışdır. “Koroğlu” eposu yarandığı gündən çox geniş yayılmış, dillər əzbəri olmuş, XVIII əsrin əvvəllərindən başlayaraq ona böyük elmi maraq oyanmışdır. Elə həmin dövrlərdən eposun ayrı-ayrı parçaları, şeirləri, onun haqqındakı nağıl və rəvayətlər yazıya alınmışdır.

XIX əsrin ortalarında “Koroğlu”ya maraq birdən-birə çox geniş vüsət almış, rus və Avropa alimlərinin, ziyalılarının diqqətini cəlb etmişdir. Bu işdə A.Xodzkonun 1842-ci ildə Londonda ingilis dilində nəşr etdirdiyi “Koroğlu” kitabı böyük rol oynamışdır. Bu nəşrdən sonra “Koroğlu” fransız və alman dillərinə tərcümə edilmiş və Avropada daha geniş şəkildə yayılıb tanınmışdır” (12, 5).

Dünya xalqlarının eposları ilə müqayisədə ləyaqətli yer tutan “Koroğlu”nun ən mükəmməl nəşri M.Təhmasibin çoxillik əməyinin məhsulu sayılır. Eposa müqəddimə və şərhlər yazmış M.Təhmasib “Koroğlu” ilə bağlı araşdırmalarını bununla bitirməmişdir. Professor M.Təhmasib “Koroğlu” eposu ilə bağlı yazırdı: “Öz yayılma vüsətinə görə dünya eposunda “Koroğlu” kimi bir əsər təsəvvür etmək çətindir. O, din və dil ayrılıqlarına baxmayaraq, orta əsrlərdə çox möhkəm

olmuş bütün siyasi-inzibati sərhədləri aşmış, ən azı Qafqaz, İran, Əfqanıstan, Orta Asiya, Ərəbistan, Sibir və Avropanın bir sıra xalqları içərisində çox geniş şəkildə yayılmış, variantlar, versiyalar əmələ gətirmişdir" (13, 12).

"Koroğlu" eposunun ilk mükəmməl nəşri M.Təhmasibin adı ilə bağlıdır. "Koroğlu" eposunun ən möhtəşəm nəşri də M.Təhmasibin xidmətidir. Təqribən 25 il yüzdən çox aşığın repertuarındakı "Koroğlu"nu yazıya almış alim 50-dən artıq variantı toplamış, daha dolğun variantı əsas götürmüş, variantlar arasındakı fərqləri əks etdirən şərh-açıqlamalarla eposu 17 qol şəklində nəşr etdirmişdir. "M.Təhmasib nəşri həm bir xalq qəhrəmanı kimi Koroğlu obrazının özünə, həm də eposa misilsiz bir möhtəşəmlik və əzəmət gətirmişdir. Milli şüur və qəhrəmanlıq, vətənsevərlik ruhunun güclənməsində M.Təhmasib "Koroğlu"sunun mühüm rolu olmuşdur. Dünya eposları ilə müqayisədə fəxri, ləyaqətli yer tutan "Koroğlu"nun hələlik ən mükəmməl nəşri onun çoxillik əməyinin məhsuludur" (9, 8).

Dastanın əsas surəti olan Koroğlu yüzilliklər boyu xalqın təfəkküründə, yaddaşında əbədi yer tutmuş dastan qəhrəmanı, bədii obraz, aşıq-şair, həmçinin tarixi şəxsiyyət kimi böyük şöhrət qazanmışdır. Onun sevilməsi, ürəklərə yol tapmasının sirri V.M.Jirmunskinin aşağıdakı fikirlərində daha yığcam ümumiləşdirilmişdir: "Xalqın təsəvvüründə cəngavər Koroğlu zorakı və işğalçı olmayıb, əslində "xalq intiqamçısı", bütün hakim qüvvələrə, varlı və ünlü kimsələrə qarşı yenilməz mübariz, eyni zamanda yoxsul kütlələrin müdafiəçisidir. Bu qəhrəmanlıq obrazının fövqəladə şöhrət qazanmasının başlıca səbəbi də məhz bununla bağlıdır" (4, 43).

M.Təhmasib "Koroğlu" eposu haqqında yazırdı: "Qəti surətdə demək olar ki, Azərbaycan "Koroğlu"sunda dini heç bir şey yoxdur"… Bizim dastanda Koroğlunun nə özünün, nə də dəlilərinin heç bir fövqəltəbii varlıqla əlaqəsi yoxdur" (5, 10). Müəllif daha sonra eposda özünə yer tapmış dini motivlərin mövcudluğunu hiss edə-edə bəzən onu yayındırmağa da çalışmışdır: "...əsərdə, eləcə də Koroğlunun özündə çox aydın şiəlik, hətta müsəlmançılıq tendensiyaları vardır. Zənnimizcə, bunlar hamısı Xodzkonun öz "fəaliyyətinin" nəticəsidir" (11, 18).

A.Xodzko nəşrinin əlyazması (orijinalı) təsdiq edir ki, mütərcim eposa heç bir müdaxilə etməmiş, "müsəlmançılıq tendensiyaları" olduğu kimi qorunmuşdur. "Kitabi-Dədə Qorqud" boylarından fərqli olaraq "Koroğlu" stabil mətni saxlanmayan, dəyişkən, mütəhərrik dastan olmuşdur. Onun abidə xarakterli əlyazmaları (Paris və Tiflis nüsxələri) qorunsa da, mövcud olan bütün qolları sazsöz məclisinin, ifaçı-dinləyici auditoriyasının qayda-qanunlarına uyğun olaraq müəyyən dəyişikliyə məruz qalmışdır.

Məlumdur ki, Sovet dövrü tədqiqatlarında həm qəhrəmanlıq (o cümlədən "Koroğlu"), həm də məhəbbət dastanlarına dair araşdırmalar siyasi-sosioloji yanaşma istiqamətində öyrənilmişdir. Ancaq Azərbaycan müstəqillik qazandıqdan sonra – 1991-ci ildən bəri bu cür tədqiqatlarda təsəvvüfi-irfani yanaşmaya doğru bir istiqamət əsas götürülmüş, araşdırmalar, əsasən, bu yöndə aparılmışdır.

"1956-cı ildə müqəddiməsi və izahları az qala dastanın özü qədər olan "Koroğlu" eposunu Məmmədhüseyn Təhmasib yenidən çap etdirdi. Eposun müqəddiməsində "1917-ci ildən etibarən ardı-arası kəsilməyən kəndli üsyanları

təşkil edib, müvəqqəti Müsavat hakimiyyəti və osmanlı müdaxiləçiləri ilə mübarizə aparmış Qatır Məmməd haqqında da söhbət açılır" (5, 7).

İnqilabdan sonra Azərbaycanda nəşr edilən "Koroğlu" eposları arasında folklorumuzun, xüsusilə də aşıq yaradıcılığının, dastanlarımızın toplanması və nəşri sahəsində ən çox iş görmüş mərhum folklorşünas Hümbət Əlizadənin 1941-ci ildə nəşr edilmiş kitabı daha çox xatırlanır (6-7, 72). Şübhəsiz ki, türk xalqlarının əfsanəvi qəhrəmanlıq dastanı olan "Koroğlu" eposunun minilliklərin yaddaşından gələn mifoloji qaynaqları sosialist realizminə tabe etdirilmədən işıq üzü görə bilməzdi.

M.Təhmasibin "Azərbaycan xalq dastanları" əsərində qeyd etdiyi kimi, "bir sıra dastanlarımızda qəhrəmanların qılıncı Misri qılınc adlanır. Lakin ümumiyyətlə, bu qılınc Koroğluya məxsusdur. Koroğlunu Misri qılıncsız təsəvvür etmək mümkün deyildir. Qıratsız, bir də Misri qılıncsız Koroğlu kor kişinin oğludur" (7, 147) fikirləri bu mifoloji anlamın əsl mahiyyətini açır.

1989-cu ildə Paris Milli Kitabxanasından gətirilmiş 13 məclisli "Koroğlu" nüsxəsinin, 25000 tirajla çap olunub yayılması koroğluşünaslığımızın qələbəsi idi. Ancaq bu variantın işıq üzü görməsi postmodernizmin ruhuna uyğun idi. Bu variantda Koroğlu Türküstan padşahı Sultan Muradın baş ilxıçısı Mirzə Sərrafın oğlu Rövşən kimi təqdim olunur. Paris nüsxəsində Rövşən Nigarla, Pərizad xanımla evlənsə də, övladı olmur.

Paris nüsxəsində şiəliyi önə çəkilən Koroğlunun Urfa şəhərindəki Mir İbrahim adlı qəssabın on dörd yaşlı oğlu Eyvaz Balını özünə saqi etmək üçün: "Eyvaz Balı kimi bir cavan sevdim" – deyir. Yaxud: "Seylab kimi bol eyləyin çaxırı, için cavanlarım, ta mən gəlincə" (8, 26) – deyə oğlanın gözəlliyinə baxmaqdan ötrü qəssab dükanına yığılmış osmanlıların "çomaqla beyinlərini dağıdıb, bellərini sındırması" (8, 29) və s. epizodları da yer alır.

Bununla belə, 1956-cı ildə məhz M.Təhmasibin sayəsində ədəbi dilin tələblərinə uyğun işlənməklə eposun çapı mühüm ədəbi hadisəyə çevrildi. Sonrakı onilliklərdə məhz bu variantın aşıqlar, el sənətkarları tərəfindən dildə-ağızda söylənilməklə geniş populyarlıq qazanmasına şərait yaratdı. "Kitabi-Dədə Qorqud" eposunun qarşısına çəkilən sədlərdən sonra "Koroğlu"nun ağır şərtlərlə də olsa, işıq üzü görməsi və eposun rus dilinə çevrilərək paytaxtda çap ediib ümumittifaq oxucularına çatdırılması M.Təhmasibi qane edirdi.

Sovet dövründəki marksist ideologiyası "Koroğlu" kimi qədim və möhtəşəm qəhrəmanlıq dastanına tətbiq edilir və dəhşətli nəticələr çıxarılırdı. Min illərlə tarixi olan bir qəhrəman − Koroğlu adi bir kəndli qiyamının rəhbəri kimi qələmə verilirdi. Digər tərəfdən, Koroğlu XVII əsr ədəbiyyatı faktı kimi həmin dövrün ədəbi şəxsiyyətləri ilə yanaşı öyrənilir, "Koroğlu" eposunun özü isə eyni dövrün ədəbi məhsulu hesab edilirdi. Lakin M.Arif, M.H.Təhmasib, H.Araslı kimi alimlər gözəl başa düşürdülər ki, "Koroğlu" yazılı ədəbiyyata aid abidə deyildir və onu XVII əsr ədəbiyyatının hadisəsi kimi öyrənmək doğru deyildir. "Lakin 1937-1938-ci illərdə onların Vəli Xuluflu, Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Əmin Abid, Salman Mümtaz kimi qələm dostları güllələnəndən sonra onlar daha diqqət-

li olmuşdular. Ona görə də bu alimlər yuxarıdan verilmiş tapşırıqlara və ideologiyaya uyğun olaraq hərəkət edirdilər. Bu səbəbdən də min il tarixi olan "Koroğlu" eposu XVII əsrdə Türkiyədə baş vermiş xalq üsyanlarını əks etdirən abidə kimi 1958-ci ildə çıxan ədəbiyyat tarixinə salınmışdı" (1, 301).

Əlbəttə, bu, sovet ideologiyasının xalqın mənəvi sərvətinə, tarixinə və ədəbiyyatına qarşı təhqiramiz bir münasibət idi. Lakin sovetlər vaxtı bu barədə yazmaq, bunu sübuta yetirmək birmənalı şəkildə mümkün deyildi. Bolşevik mətbuatı, rəsmi tənqid xalqın qədim köklərinə hörmətlə yanaşmağa çağıran alimlərə divan tuturdu.

"Koroğlu"nun xalq üsyanları barədə dastan kimi qəbul edilməsi onun nəşri, tədqiqi, təbliği üçün imkanlar açırdı. Məhz bu imkanlar sayəsində sovet vaxtı "Koroğlu" barədə çoxlu tədqiqatlar, kitab və məqalələr yazılmış, abidə xarici dillərə tərcümə olunmuşdur. Bütün bunlardan əlavə, dastan orta və ali məktəblərdə tədris olunur və gənc nəslə öyrədilirdi. Gənc nəsil səthi şəkildə olsa da, öz qəhrəmanlıq tarixi barədə təsəvvür əldə edirdi. Dastanın motivləri əsasında 1958-ci ildə bədii film çəkildi. Ü.Hacıbəyov isə onun motivləri əsasında hələ 30-cu illərdə möhtəşəm bir opera yazmışdı (1, 303).

"Koroğlu"nun sovet dövrü taleyini "Dədə Qorqud" dastanlarının taleyi ilə müqayisə edəndə "Koroğlu"nun təhrif olunmuş şəkildə olsa da, tədqiq və tədrisinə haqq qazandırmaq olar. Çünki sovet dövründə bir müddət "Dədə Qorqud" kimi möhtəşəm abidə həm ədəbiyyat tarixindən çıxarılmış, həm də orta və ali məktəblərdə tədris edilmək imkanından məhrum edilmişdi. Çünki "Kitabi-Dədə Qorqud" dastanında türkçülük, qəbilədaxili həmrəylik, etnik birlik kimi prinsiplər üstünlük təşkil etdiyindən, 30-cu illərin proletar beynəlmiləlçiliyi prinsipinə uyğun deyildi. Xüsusən dastanın ana xəttini təşkil edən türkçülük pantürkizmə qarşı mübarizənin getdiyi o illərdə aktual məsələ sayıla bilməzdi. O dövrdə Azərbaycanda sovet ideologiyasına uyğun ən mükəmməl epik əsər yalnız "Koroğlu" dastanı ola bilərdi. Daha doğrusu, yalnız "Koroğlu" dastanını sovet ideologiyasına uyğunlaşdırmaq olardı. O dastan ki, onun qəhrəmanı varlılara qarşı vuruşur, onların var-dövlətini talayıb yoxsullara verir.

"Koroğlu" operasının libretto müəllifi, milli tariximizin, folklorumuzun gözəl bilicisi M.S.Ordubadi Üzeyir bəyin "Koroğlu" ilə bağlı ona dediklərini öz xatirələrində yazırdı: "Bir gün Üzeyir bəy mənim yanıma gəldi. Nədənsə, o, çox tərəddüdlü görünürdü. Nəhayət, o dedi: "Koroğlu" dastanı əsasında bir opera yazmaq fikrindəyəm. Bilirsən ki, Koroğlunun qəhrəmanlıq siması müxtəlif variantlar içərisində itib getmişdir. Koroğlu kimi bir üsyançını orta əsrlərə məxsus bir çapğın və eşqbaz kimi qələmə verirlər. Buna görə də biz Koroğlu epoxasının siyasi və ictimai mündəricəsini yazdığımız operada aydınlaşdırmalıyıq. Xalqımız Koroğlunun möhkəm bir qəhrəman olduğunu, öz əsrinin məşhur üsyan təşkilatçısı kimi feodallara qarşı mübarizə apardığını səhnədə görməlidir.

Üzeyir bəy bu sözlərdən sonra mənə bir daha müraciət etdi:

– Demək ki, biz bunu qərara alırıq! – dedikdə, mən də əlimdəki çay stəkanını yerə qoyub: – Bəli, qərarlaşdıq, – deyə cavab verdim" (10, 32).

Üzeyir Hacıbəyli əsərin hansı məqsədlə yazılmasını isə belə izah edirdi: "Yazacağım "Koroğlu" operasının Azərbaycan xalqının, bizim kolxozçuların, fəhlələrin və əməkçi intellegensiyanın bugünkü tələblərini ödəyə biləcək ... bir əsər olması idi. Mən dolğun Azərbaycan operası yaratmaq məqsədini izləyirdim ki, bu opera bütün sadəliyi və aydınlığı ilə bərabər, yüksək bədii keyfiyyətə malik olsun. "Koroğlu"nun musiqiyə salınması işində mən öz qarşımda formaca dərin milli opera yaratmaq məsələsini qoymuşdum. Məzmuna gəlincə, "Koroğlu" yüksək bədii keyfiyyətli olmaqla bərabər, sadə və aydın bir tərzlə ifadə edilmiş olmalı idi" (2, 393-394).

Ü. Hacıbəyli "Koroğlu" operası üzərində işə 1932-ci ildən başlayır və əsəri 1936-cı ildə tamamlayır, operanın tamaşaya qoyulması məsələsi gündəmə gəlir. Təbii ki, belə bir mühüm mədəniyyət hadisəsi Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının diqqətindən kənarda qala bilməzdi. Çünki o dövrdə belə bir mədəniyyət hadisəsi ancaq partiyanın Mərkəzi Komitəsinin razılığı ilə həyata vəsiqə ala bilərdi. Ona görə də əsər üzərində işə mütəmadi nəzarət olunurdu.

Təsadüfi deyil ki, Azərbaycan K(b)P MK bürosu 1937-ci il yanvarın 4-də "Koroğlu" operası haqqında ayrıca qərar qəbul etmişdi: "Məmmədov və Arustamov yoldaşlara tapşırılsın ki, "Koroğlu" operasının musiqisinin və mətninin ictimai dinlənilməsini təşkil etsinlər və öz təkliflərini Mərkəzi Komitənin bürosuna təqdim etsinlər".

Mərkəzi Komitə bürosunun, təxminən, bir ay sonra – 8 fevral tarixli iclasında həmin qeydlər nəzərə alınır və yeni qərar qəbul olunur: "Azərbaycan K(b)P MK Bürosu hesab edir ki, bəstəkar, əməkdar incəsənət xadimi Üzeyir Hacıbəyovun Azərbaycan xalq musiqisi əsasında yaratdığı yeni "Koroğlu" operası Azərbaycan opera sənətinə böyük töhfədir və müasir opera incəsənətinin əsas tələblərinə cavab verir. Lakin musiqinin və mətnin ilkin dinlənilməsi göstərir ki, "Koroğlu" operası bir sıra qüsurlardan xali deyil və əlavə işləməklə bu qüsurları aradan qaldırmaq lazımdır".

"Qüsurları" aradan qaldırmaq üşün Mərkəzi Komitənin bürosu Koroğlunu xan-bəy özbaşınalığına qarşı mübarizə aparan xalq qəhrəmanı kimi, cəsarətli, mərd, mübariz göstərməyi, Azərbaycan folklorundan – mahnı və rəqslərdən daha çox istifadə etməyi, dilin təmizliyinə xüsusi fikir verməyi tövsiyə edir. Həmçinin Koroğlunun "tarixən tamamilə yanlış formalaşmış "quldur" obrazını kənara atmağı" məsləhət görür (3).

Mərkəzi Komitə bürosunun 8 fevral 1937-ci il tarixli iclasında qərara alınır ki, Moskvada keçiriləcək dekadada nümayiş etdirmək üçün Müslüm Maqomayevin "Nərgiz", Qliyerin "Şahsənəm", Hacəbəyovun "Koroğlu" və "Arşın mal alan" operaları aparılsın. Mərkəzi Komitə "Koroğlu"nun ilk tamaşasının Azərbaycanda Aprel İnqilabının 17-ci ildönümü dövrünə – 37-ci ilin aprelinə salınması barədə tapşırıq verir. 1937-ci il martın 31-də isə opera haqqında daha bir qərar – "Mətbuatda "Koroğlu" operası haqqında informasiyanın təşkili haqqında" qərar qəbul olunur. Sənəddə deyilirdi: "Ələkbərli, Şahbazov, Şamilov yoldaşlara tapşırılsın ki,

mərkəzi qəzetlərdə dərc edilmək üçün "Koroğlu" operası haqqında bir sıra məqalələr hazırlasınlar" (3).

Bütün bunlar dövlətin operaya xüsusi diqqətindən xəbər verir. Və "Kommunist" qəzetinin 1937-ci il 29 aprel tarixli nömrəsində "Sabah Koroğlu" operasının birinci tamaşası göstərilir" sərlövhəsi altında bir neçə yazı dərc edilir. Beləliklə, aprelin 30-da M.F.Axundov adına Böyük Dövlət Opera və Balet Teatrında (o vaxt teatr belə adlanırdı) "Koroğlu"nun ilk tamaşası olur.

Qeyd edək ki, operaya o dövrün tanınmış rejissoru İsmayıl Hidayətzadə quruluş vermiş, Üzeyir bəy özü dirijorluq etmişdi. Və tamaşa böyük uğurla keçmişdi. Lakin belə ciddi mədəniyyət hadisəsi barədə növbəti günlərdə qəzetlərdə bir kəlmə yazı yazılmır. Görünür, bir daha kimlərinsə rəyinin öyrənilməsinə vaxt lazım olur.

Yalnız təxminən bir həftə sonra buzlar əriyir. "Kommunist" qəzetinin 6 may tarixli nömrəsi Üzeyir bəyin böyük portreti ilə açılır. Bu, artıq tamaşanın yüksək səviyyədə qəbulu demək idi... Tamaşa haqqında şərhlər və rəylər "Azərbaycan incəsənətinin təntənəsi" adı altında növbəti səhifədə verilmişdi.

O vaxt ilk tamaşada iştirak edən Hüseyn Cavid operada tarın səslənməsindən təsirlənərək yazırdı: "Koroğlu" operasında Azərbaycanın valehedici musiqi folkloru tamamlandırılmış Avropa musiqi texnikası ilə uzlaşdırılmışdır. İlk dəfə orkestroya daxil edilən tar gözəl səs yaratmışdır" (3).

İlk tamaşa bütün səviyyələrdə rəğbətlə qarşılanır. 1937-ci ilin avqustunda Mərkəzi Komitə və Xalq Komissarları Soveti qərara alır:

1. "Koroğlu" operasının müəllifi, bəstəkar, əməkdar incəsənət xadimi Ü.Hacıbəyova xalq artisti adı verilsin.

2. Əməkdar incəsənət xadimi bəstəkar Ü.Hacıbəyova 25.000 məbləğində pul mükafatı verilsin.

Bu, "Koroğlu"nun dövlət səviyyəsində bəyənilməsi demək idi. Artıq operanı alnıaçıq Moskvaya incəsənət dekadasına – Stalinin qəbuluna aparmaq olardı... Aprelin 5-də Moskvadakı Bolşoy teatrda Azərbaycan incəsənəti dekadası "Koroğlu" operası ilə açılır və tamaşaya sovet rəhbərləri – Stalin, Molotov, Kaqanoviç, Jdanov da baxır... Maraqlıdır ki, "Koroğlu" Moskvada dekada günlərində 3 dəfə nümayiş olunur. Və Stalin hətta son tamaşada da iştirak edir. Qəzetlər növbəti gün "Koroğlu" operasının nəhəng uğuru" sərlövhəsi ilə çıxır.

Tamaşadan sonra incəsənət dekadasının iştirakçılarının şərəfinə Kremldə təntənəli qəbul təşkil edilir. Dekada iştirakçıları mükafatlandırılır. Təbii ki, təltif olunanların siyahısına Üzeyir bəy başçılıq edir. Ona SSRİ xalq artisti fəxri adı verilir. Moskvada qazanılan uğurdan sonra "Koroğlu" operası SSRİ-nin başqa şəhərlərində də göstərilməyə başlayır, dövrün və zamanın ən uğurlu əsəri kimi qiymətləndirilir.

ƏDƏBİYYAT

1. Əliyeva N. Sovet dövrü Azərbaycan ədəbiyyatı (1941-1991). Bakı: Elm və təhsil, 2013, 664 səh.

2. Hacıbəyli Üzeyir. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, 456 səh.

3.Həsənov M. Stalin "Koroğlu"nu necə bəyəndi? 06 Noyabr, 2013 https://azvision.az/news/16557/stalin-koroglunu-nece-beyendi

4.Жирмунский В.М. Некоторые итоги изучения героического эпоса народов Средней Азии. "Вопросы изучения эпоса народов СССР," Москва: изд-во АН СССР, 1958, стр.43.

5.Koroğlu. /Çapa hazırlayanı və ön sözün müəllifi M.H.Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1956, 454 s.

6. Koroğlu (hazırlayan H.Əlizadə), Bakı: 1941.

7.Təhmasib M. Azərbaycan xalq dastanları. Bakı: 1972. səh.142

8. Koroğlu. Paris nüsxəsi. Bakı, "Şərq-Qərb", 2005, 224 səh.

9.Məmmədov Ş. Azərbaycanın ilk folklorşünas alimi. Azərbaycan müəllimi qəz. 2011, 28 yanvar, səh. 8-9.

10.Ordubadi M.S. Həyatım və mühitim. Xatirələr. Bakı: XAN nəşriyyat, 2012, 232 səh.

11. Təhmasib M.H. Koroğlu. Müqəddimə, Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1956, səh.10; səh.18

12.Sadıq İ. Azərbaycan "Koroğlu" eposu (I kitab). Bakı: Elm və təhsil, 2015, 248 səh.

13.Sarıyeva İ. Cəfakeş folklorşünaslarımız – Hümmət Əlizadə və Məmmədhüseyn Təhmasib. Bakı xəbər, 2015. 23 iyun, səh.12.